**Şəfa Tiflis oğlu ƏLİYEV**
Sumqayıt Dövlət Universitetinin professoru,i.e.d.,
UNEC Qarabağ İqtisadi Araşdırmalar Mərkəzinin Rəhbəri
ORCİD-ID: http://orcid.org/0000-0002-4997-7563

# QLOBAL ÇAĞIRIŞLAR VƏ AZƏRBAYCAN: İQTİSADİ SUVERENLİK, 4-CÜ SƏNAYE İNQİLABINA KEÇİD, QLOBAL NƏQLİYYAT DƏHLİZLƏRİ VƏ POSTKONFLİKT ƏRAZİLƏRIN REİNTEQRASİYASI

**Xülasə**

**Tədqiqatın məqsədi** – qlobal çağırışlar kontekstində Azərbaycanın iqtisadi suverenlik aspektlərinin, 4-cü sənaye inqilabına keçid problemlərinin araşdırılması, qlobal nəqliyyat dəhlizləri və postkonflikt ərazilərin reinteqrasiyası məsələlərinin tədqiq edilməsidir. Qlobal problemlərin mahiyyəti verilmişdir. Azərbaycanın iqtisadi suverenlik prioritetləri açıqlanmışdır. Azərbaycanın 4-cü sənaye inqilabına keçid problemləri təhlil olunmuşdur. Qlobal nəqliyyat dəhlizlərinin strateji əhəmiyyəti verilmişdir. Postkonflikt ərazilərin reinteqrasiyası istiqamətləri baxılmış və ümumiləşdirilmişdir.

**Tədqiqatın metodu kimi** – bir sıra metodlardan - analiz, sintez, müqayisə, statistik təhlil, ümumiləşdirmə və proqnozlaşdırma metodlarından istifadə olunmuşdur. Bunlarla yanaşı, mqasir qlobal problemlərə və tendensiyalara dair müxtəlif tədqiqatçıların elmi əsərləri diqqət mərkəzində saxlanılmışdır.

**Tədqiqatın nəticələri** – məqalədə ümumiləşdirilmiş müddəalardan qlobal çağırışlar kontekstində fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi, ölkənin iqtisadi inkişaf modelinin təkmilləşdirilməsi tədbirlərinin görülməsi ilə əlaqəlidir.

**Açar sözlər:** Azərbaycan, qlobal çağırışlar, iqtisadi suverenlik, 4-cü sənaye inqilabı, qlobal nəqliyyat dəhlizləri, postkonflikt ərazilər.

**UOT:** 336.71
**JEL:** G01, G18, G21, G28
**DOI:** https://doi.org/ 10.54414/AONA6796

## Giriş

Qeyd edək ki, qlobal transformasiyalar ildən-ilə dərinləşməkdədir. Digər tərəfdən, dünyanın siyasi düzənində və qlobal səviyyədə yeni çağırışlar qapıdadır. Beynəlxalq təşkilatlar və qurumlarda heç də ədalətli yanaşmalar əsas deyildir və çox vaxt ikili standartlar üstünlük təşkil edir. Dünyanın ən iri beynəlxalq təşkialtı olan BMT-də islahatlar tələb olunur, çünki BMT-nin əksər qərarları kağız üzərində qalır. Dünya Ticarət Təşkilatının qəbul etdiyi qərarlar fövqəl dövlət olan ABŞ tərəfindən icra olunmur. Beynəlxalq biznes yanaşmaları transformasiyaya uğramaqdadır [1, s. 254]. Eyni zamanda, qlobal iqlim dəyişkilikləri bəşəriyyəti daha çox narahat etməkdədir və bununla bağlı sistemli, həm də davamlı tədbirlərin görülməsi vacibdir [2, s.9 ].

Bir məqama xüsusi toxunmaq istərdik. İri dövlətlər və güc birlikləri tərəfindən münaqişədə olan ölkələrə qarşı iqtisadi sanksiyalar beynəlxalq ticarət mübadiləsinə güclü zərbə vurmuşdur. Bunlarla bərabər, enerji resurslarının yeni mənbələrinin tapılması və bununla bağlı tədbirlərin görülməsi əksər dünya ölkələrini narahat edən məsələlərdəndir. Belə ki, enerji mənbələri uğrunda amansız mübarizə gedir və yeni enerji ehtiyatlarının aşkarlanmasına, təsdiqlənməsinə, istismarına 100 milyardlarla dollar vəsait tələb olunur [3, s. 658]. Qlobal problemlər və transformasiyalar şəraitində mürəkkəb problemlərin həll edilməsi də tələb olunur, məsələn dünya əhalisinin aclıq və yoxsulluq problemləri kəskinləşməkdədir, amma təsirli tədbirlərin görülməsi mümkün olmamışdır.

**Qlobal çağırışlar və Azərbaycan reallıqları**

Hazırkı şəraitdə daha bir qlobal tendensiya ön plana çıxamqdadır. Bu baxımdan, süni intellekt, «ağıllı» texnologiyalar yeni reallıqlar yaratmışdır. Dördüncü Sənaye İnqilabı dünya iqtisadiyyatına daha dərin təsir göstərməkdədir. Maddi istehsal getdikcə daha çox qeyri-maddi istehsalla əvəzlənir. Süni intellekt sərhədsiz imkanlar gətirmişdir. Mikro elektronikanın imkanları və tutumu xeyli artmışdır. Robototexnikada artıq nano mühərriklər quraşdırılır, daha dəqiq desək molekul həcmində rotorlar işləyir. İnnovasiyalar və nanotexnologiyalar inqilabi dəyişkiliklər gətirir [4]. Bu amillər baxımından, informasiya və bilik iqtisadiyyatının formalaşdırılması prosesləri sürətləndirilməlidir [5]. Ölkədə 4-cü sənaye inqilabı kontekstində tədbirlərin görülməsinə başlanılmışdır, amma bu tədbirlərin səmərəliliyinin artırılması vacibdir [6]. Xüsusilə, bu qeyd olunan istiqamətlərdə dövlət-özəl tərəfdaşlığı çərçivəsində daha çox layihələrin təşkili təmin olunmalıdır [7]. Ölkədə elektron xidmətlərin genişləndirilməsi və sağlam rəqabət mühitinin artırılması vacibdir [8]. Ölkənin müxtəlif iqtisadiyyat sahələrində rəqabət məcəlləsinin tələblərinə əməl edilməsi üçün təsirli tədbirlərin görülməsi və məqsədli proqramların həyata keçirilməsinə ehtiyac yaranmışdır [9].

Nəzərə almaq lazımdır ki, qlobal transformasiyalar və tendensiyalar baxımından dünya səviyyəsində önəmli və sürətli hadisələr baş verir. Hər bir dövlətin və o cümlədən, Azərbaycanın bu tendensiyalara adekvat yanaşması strateji əhəmiyyət kəsb edir. Məsələn, hazırda ABŞ və Kanada da süni intellekt mütəxəssislərinin sayı 10 min nəfəri keçmişdir. Çin dünyanın texnoloji bazarını ekspansiya hədəfi kimi götürmüşdür və artıq bazara çıxarılan robotların 40 %-i Çində istehsal olunur. Yaponiyada istehsal olunan robotlar istehsal və texnoloji funksiyaları yerinə yetirir. Proqnozlara görə 2025-ci ilin sonuna kimi dünya iqtisadiyyatında internet üzərindən əməliyyatlar 10 trilyon dollardan çox olacaqdır. Bu il Davos İqtisadi Forumunda əsas trendlər sırasında işçi heyətinin yenidən hazırlanması, yaradıcı keyfiyyətlərin maksimum artırılması, yeni innovasiyaların mənimsənilməsinin intensivləşdirilməsi və s. daha çox diqqət çəkmişdir. Eyni zamanda, getdikcə İnsan Mərkəzli İqtisadiyyatın inkişaf etdirilməsi ön plana çıxır. Rəqəmsallaşma, əşyaların interneti, bilik iqtisadiyyatı getdikcə daha çox prioritetlik təşkil edir. Ölkəmizdə artıq rəqəmsal inkişaf konsepsiyası qəbul edilmişdir və bu konsepsiyanın əsas müddəalarının davamlı və intensiv şəkildə həyata keçirilməsi tələb olunur [10].

Qeyd edək ki, rəqəmsal və süni intellekt mexanizmləri biznes qaydalarını və yanaşmalarını xeyli dəyişə bilmişdir. Yeni biznes şirkətlərinin qlobal səviyyədə sürətli inkişafının şahidi oluruq. Misal, bir neçə on il bundan əvvəl heç kəsin tanımadığı Alibaba, Amazon, Uber və s. şirkətlər rəqəmsal innovasiyalar əsasında hazırda dünyanın ən iri korporasiyalarına çevrilmişlər. 4Sİ əsas götürülməklə yeni biznes modelləri tətbiq edilir. Növbəti 50 ilin hədəfləri nəzərə alınmaqla rəqəmsal texnologiyalar tətbiq olunur. Maya dəyərinin optimallaşdırılması və bazarda rəqabət üstünlüklərinin təmin edilməsi üçün müasir texnologiyalar əsaslı proqramlar tətbiq edilir [11]. Yeni ixtisaslar, peşələr və biznes fəaliyyət modelləri ön plana çıxmaqdadır [12]. Rəqəmsal texnologiyalar əsasında gələcək məhsul çeşidinin siyasəti və strukturu formalaşdırılır [13]. Maraqlıdır ki, 2050-ci ilədək və sonrakı illərdə hazırda mövcud olan peşələrin və ixtisasların çox hissəsi əmək bazarından çıxacaq. 2050-ci ilədək süni intellekt və rəqəmsal texnologiyaların dərin tətbiqi nəticəsində 90 milyon iş yeri itiriləcək, amma maraqlıdır ki, 150 milyon yeni iş yerləri yaradılacaqdır. Deməli, işləyən insanlarımızın əhəmiyyətli hissəsi öz peşələrini yeniləməli və ya peşəkarlıq səviyyəsini maksimum yüksəltməlidir [14]. Eyni zamanda, biznes mexanizmlərinin maksimum yenilənməsi və ya təkmilləşdirilməsi prosesləri dərinləşməkdədir [15, s. 205].

Azərbaycan qlobal çağırışlara adekvat olaraq addımlar atmaqdadır. Belə ki, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində "Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi" publik hüquqi şəxs yaradılmışdır [16]. Bunlarla bərabər, 4Sİ Şəbəkəsinin Azərbaycan Mərkəzinin açılışı baş vermişdir. Ölkəmizdə Elektron Rəqabət İnformasiya Sisteminin yaradılması tədbirləri görülməkdədir. Bu istiqamətlərdə dövlət-özəl tərəfdaşlığı formatından istifadə olunması istiqamətində də addımlar

atılmaqdadır. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” çərçivəsində milli iqtisadiyyatın yüksək texnologiyalar əsasında inkişaf etdirilməsi maksimum prioritetlik səviyyəsinə qaldırılmışdır [17]. İşğaldan azad olunmuş ərazilərdə reallaşdırılan layihələr ilk növbədə “ağıllı” texnologiyalar əsaslıdır.

**Qlobal transformasiyalar şəraitində Azərbaycanda yeni texnoloji uklada keçid problemləri, qlobal nəqliyyat dəhlizləri və post-konflikt ərazilərin reinteqrasiyası məsələləri**

Qeyd edək ki, ölkəmizdə informasiya cəmiyyətinin inkişafı ilə bağlı davamlı tədbirlər həyata keçirilir. Digər tərəfdən, hazırda telekommunikasiya və informasiya texnologiyalarının inkişafı xüsusi diqqət mərkəzindədir və bununla bağlı Strateji Yol Xəritəsi icra olunur.

Cədvəl 1-də Azərbaycanın müəssisələrində İKT-dən istifadənin əsas göstəriciləri təhlil edilmişdir və təhlildən göründüyü kimi o qədər də yüksək göstəricilər əldə olunmayıb.

**Cədvəl 1**

**Azərbaycanın müəssisələrində İKT-dən istifadənin əsas göstəriciləri**

| Göstəricilərin adı | 2018 | 2020 | 2022 | 2023 |
|---|---|---|---|---|
| Kompüterdən istifadə etmiş müəssisələrin fəaliyyət göstərən bütün müəssisələrin ümumi sayında xüsusi çəkisi, faizlə | 67,2 | 63,9 | 65,8 | 66,6 |
| İnternetə çıxışı olan müəssisələrin fəaliyyət göstərən bütün müəssisələrin ümumi sayında xüsusi çəkisi, faizlə | 52,9 | 52,5 | 54,8 | 56,0 |
| Veb səhifəsi olan müəssisələrin fəaliyyət göstərən bütün müəssisələrin ümumi sayında xüsusi çəkisi, faizlə | 12,3 | 9,9 | 10,5 | 10,6 |
| Müəssisələrin internetə qoşulma növünə görə bölgüsü, yekuna nisbətən faizlə | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| Müəssisələrin internetdən istifadə məqsədlərinə görə bölgüsü, faizlə | | | | |
| Elektron məktubların göndərilməsi və qəbulu | ... | 24,9 | 22,6 | 21,3 |
| Əmtəə və xidmətlər haqqında informasiya əldə edilməsi | ... | 7,9 | 7,7 | 7,7 |
| Dövlət idarəetmə orqanlarından məlumatların əldə edilməsi | ... | 17,1 | 16,1 | 15,5 |
| İnternet bankçılıq | ... | 9,6 | 11,7 | 12 |
| Digər maliyyə xidmətlərindən istifadə | ... | 13,4 | 13 | 13,1 |
| Dövlət idarəetmə orqanları ilə interaktiv əlaqə (məlumatların əldə edilməsi istisna olmaqla) | ... | 6,5 | 6,5 | 6,7 |
| Müştərilərə xidmətlərin göstərilməsi | ... | 5,3 | 5,9 | 6,3 |

Cədvəl 2-də isə Azərbaycanın sənaye müəssisələrində 2023-cü ildə innovasiyalara mane olan amillərin təhlili verilmişdir və təəssüf ki, uzun müddətdir ki, bu problemlərin həlli mexanizmləri hazırlanaraq tətbiq edilməmişdir. Bu baxımdan ölkəmizdə milli innovasiya sisteminin yaradılması başa çatdırılmamışdır. İnnovasiya məhsullarının həcmi cüzidir və dəqiq statistikası yoxdur. Məsələn, SOCAR-ın müəssisələrində innovasiya məhsulunun olub-olmaması barəsində Dövlət Statistika Komitəsinin rəsmi nəşrlərində məlumatlar öz əksini tapmamışdır. Texnologiya və innovasiyalar mərkəzlərinin sayı azdır və ya yoxdur. Regionlarda ümumiyyətlə texnoloji və innovasiya mərkəzləri yoxdur.

Hesab edirik ki, hər bir aparılan tədqiqatın konstruktiv və perspektivə istiqamətlənmiş hədəflərinin, fəaliyyət istiqamətlərinin olması səmərə verə bilər. Əvvəldə qeyd etdiyimiz kimi Azərbaycan ümumilikdə texniki uklada keçmək məsələsini həll etməlidir [18]. Yenə bildirdiyimiz kimi, Azərbaycanda milli innovasiya sisteminin yaradılması başa çatdırılmalıdır. Bu fikirdəyik ki, ölkənin iri şəhərlərində və regionlarında çoxfunksiyalı innovasiya və texnoloji mərkəzlər yaradılmalıdır. AMEA-nın demək olar ki, fəaliyyətsiz vəziyyətdə olan yüksək

texnologiyalar parkının işi yenidən təşkil edilməlidir. Ölkədə elmi-tədqiqatlara məqsədli qrantların və maliyyə təminatının həcmi əhəmiyyətli səviyyədə artırılmalıdır.

**Cədvəl 2**

**Azərbaycanın sənaye müəssisələrində 2023-cü ildə innovasiyalara mane olan amillərin təhlili**

| **Göstəricilər** | Əsas və ya həlledici amillər | Əhəmiyyətli amillər | Az əhəmiyyətli |
|---|---|---|---|
| İllər | 2023 | 2023 | 2023 |
| **İqtisadi amillər** | | | |
| öz pul vəsaitinin kifayət qədər olmaması | 17 | 24 | 7 |
| dövlət tərəfindən maliyyə yardımının kifayət qədər olmaması | 2 | 7 | 25 |
| təzə məhsullara ödəniş qabiliyyətli tələbatın aşağı olması | 2 | 21 | 15 |
| yeniliklərin dəyərinin yüksək olması | 4 | 22 | 13 |
| yüksək iqtisadi risk | 12 | 20 | 9 |
| təzə məhsullara çəkilən xərclərin əvəzinin ödənilməsi müddətlərinin uzun olması | 1 | 14 | 28 |
| **İstehsal amilləri** | | | |
| müəssisənin innovasiya potensialının aşağı olması | 10 | 13 | 8 |
| ixtisaslı işçilərin çatışmaması | 3 | 16 | 22 |
| yeni texnologiyalar haqqında informasiyanın çatışmaması | 2 | 9 | 19 |
| müəssisələr tərəfindən yeniliklərin qəbul edilməməsi | - | 15 | 17 |
| satış bazarları haqqında informasiyanın çatışmaması | 1 | 13 | 16 |
| digər müəssisələr və digər elmi təşkilatlar ilə kooperasiya üçün imkanların olmaması | - | 2 | 22 |
| **Digər səbəblər** | | | |
| daha əvvəlki innovasiyalar nəticəsində təzə məhsullara ehtiyacın olmaması | - | 13 | 6 |
| innovasiya fəaliyyətini tənzimləyən və həvəsləndirən qanunvericilik və normativ- hüquqi sənədlərin olmaması | 1 | 11 | 7 |
| innovasiya prosesi müddətinin qeyri-müəyyən olması | - | 4 | 15 |
| innovasiya infrastrukturunun (vasitəçilik, informasiya, hüquq, bank və s.xidmətlərinin) inkişaf etməməsi | - | 13 | 4 |
| texnologiyalar bazarının inkişaf etməməsi | 1 | 5 | 14 |

Elmi tədqiqatlar üzrə ixtisaslaşan alimlərin əməyi obyektiv qiymətləndirilməlidir və bununla bağlı sistemli tədbirlər görülməlidir. Universitetlərimizdə texnoparkların və innovasiya mərkəzlərinin yaradılmasına konseptual yanaşmalar yenilənməlidir, burada özfəaliyyət səviyyəsindən dünya təcrübəsinə uyğun olaraq daha ciddi fəaliyyət səviyyəsinə keçid təmin edilməlidir və s. Bu qeyd olunan problemlər baxımından biz tədqiqatçılar və alimlər nə edə bilərik? Bir neçə birgə fəaliyyət istiqamətlərini təklif kimi irəli sürürük və dəyərləndirilməsi mümkündür: 1) «4Sİ kontekstində Azərbaycanın texnoloji uklada keçid problemlərinin həllinə konseptual yanaşmalar»ın müəyyənləşdirilməsi ilə bərabər, fəaliyyət mexanizmləri hazırlanmalıdır. 2) «Azərbaycanda milli innovasiya sisteminin yaradılması və inkişaf etdirilməsi problemləri» - həll olunmalıdır. 3) «Azərbaycanda elmi-tədqiqatların nəticələrinin kommersiyalaşdırılmasının strateji aspektləri» müəyyənləşdirilməli və tədbirlər görülməlidir. 4) «Azərbaycanda sənaye sahələrinin innovasiyalaşdırılmasının aktual problemləri» araşdırılmalı və sistemləşdirilərək yeni fəaliyyət proqramları reallaşdırılmalıdır. Bunlarla bərabər, fikrimizcə: 1) «Azərbaycanda bilik iqtisadiyyatının inkişaf etdirilməsinin modelləşdirilməsi» - istiqamətində daha çox tədqiqatlar aparılmalı və tədbirlər görülməlidir. 2) «Azərbaycanın sənaye sahələrində yüksək texnologiyaların tətbiqi problemləri»nə dair fundamental araşdırmalara ciddi zərurət vardır. 3) Həmçinin Azərbaycanda 4 Sİ kontekstində texnoloji transformasiyaların dərinləşdirilməsi və Azərbaycanda innovasiyaların mənimsənilməsi və tətbiqi problemlərinin həlli yollarının müəyyənləşdirilməsi vacibdir. 4) Digər tərəfdən, Azərbaycanda bilik iqtisadiyyatının formalaşdırılması və

inkişafının modelləşdirilməsinə zərurət qalmaqdadır.

Bunlarla bərabər, qlobal çağırışlar kontekstində nəqliyyat-logistika dəhlizlərinin strateji roluna diqqət yetirmək istərdik. Xüsusilə, Azərbaycanın regionda və beynəlxalq səviyyədə imicini əhəmiyyətli səviyyədə artıracaq layihələr barəsində fikir mübadiləsinə ehtiyac vardır. Bu baxımdan Transxəzər Orta Dəhlizin əhəmiyyəti yüksəlməkdədir. Müstəqil Azərbaycan dövləti öz milli maraqlarını qorumaqla yanaşı, region dövlətlərinin, ilk növbədə Türk dövlətlərinin dünya bazarlarına daha səmərəli çıxışı üçün Xəzər dənizində, həmçinin Ələt beynəlxalq dəniz ticarət limanında güclü nəqliyyat-logistika infrastrukturu yaratmışdır. Hazırda Orta Dəhlizlə yükdaşımaların həcmi nəzərəçarpacaq dərəcədə artmaqdadır. Orta dəhlizin əsas perspektivi Avropa ilə Asiya arasında mühüm nəqliyyat-logistik dəhlizin güclü potensiala malik olması ilə əlaqədardır. Bu dəhliz Avropa İttifaqının, həmçinin Çinin, digər region ölkələrinin iqtisadi maraqlarına uyğundur və beynəlxalq yükdaşımaların səmərəliliyinin artırılması təmin edilmiş olur. Orta dəhlizin yaxın perspektivdə maksimum rəqəmsallaşdırılması, mövcud infrastrukturun genişləndirilməsi hədəfləri diqqət çəkir. Bu sahədə Sinqapurun “PSA İnternational”, həmçinin onun törəmə şirkəti olan “Qlobal DTC” ilə birgə iş aparılır. Aktau (Qazaxıstan) və Ələt (Azərbaycan) limanlarının yükdaşıma gücləri sürətlə artırılmaqdadır. Perspektivdə yük daşımaların 25 milyon tona qədər təmin edilməsi proqnozlaşdırılır. Orta Dəhliz həm də ənənəvi qədim ticarət yollarının müasir texnologiyalar əsasında bərpa edilməsinə əlverişli şərait yaratmışdır. Açığını desək bu bir tarixi şansdır və regionun nəqliyyat-logistik marşrutlarının səmərəliliyi baxımından müstəsna əhəmiyyət kəsb edir. Belə ki, Transxəzər Beynəlxalq Nəqliyyat marşrutu və yaxud qısaca olaraq Orta Dəhliz Mərkəzi Asiya, Qafqaz, Türkiyə və Şərqi Avropa vasitəsilə Çin və Avropa İttifaqının konteynerləşdirilmiş dəmir yolu yük nəqliyyatı şəbəkələrini birləşdirir.

Yaxın perspektivdə Türk dövlətlərinin iqtisadi və siyasi mənzərəsini, coğrafiyasını və strateji əhəmiyyətini dəyişəcək önəmli tarixi hadisələrdən biri də Zəngəzur Nəqliyyat-logistik Dəhlizinin açılması olacaqdır [19]. Böyük maneələrə və çətinliklərə baxmayaraq Azərbaycan dövləti bu layihənin həyata keçirilməsi üçün davamlı siyasət aparır və praktiki işlər görür. Qardaş Türkiyə və digər Türk dövlətlərinin dəstəyi ilə müşahidə olunan bu proseslər tezliklə müsbət nəticələrini verəcəkdir. Hazırda İran ərazisindən keçməklə Zəngəzur logistik dəhlizinin daha tez reallaşdırmaq layihəsi üzərində işlər gedir [20]. Amma, əminliklə deyə bilərik ki, perspektivdə vaxtı ilə keçmiş SSRİ rəhbərliyi tərəfindən ermənistana verilmiş ərazidən bu dəhlizin keçidi mümkün olacaqdır. Yəni Azərbaycanın mühüm tərkib hissəsi olan Naxçıvanla quru əlaqə bərpa ediləcək və Zəngəzur logistik dəhlizi fəaliyyət göstərəcəkdir. Təəssüf ki, ermənistanın siyasi rəhbərliyi xarici havadarlarına güvənərək bu layihənin həyata keçirilməsini əngəlləyir və sülh müqaviləsindən yayınır. Amma hesab edirik ki, Zəngəzur dəhlizinin açılmasının gecikdirilməsi əslində ermənistan üçün önəmli bir şansdır, fürsətdir, yəni bu yolla ermənistan iqtisadi blokadadan çıxaraq region və dünya ölkələri ilə daha intensiv inteqrasiya edə bilərdi. Suveren Azərbaycan dövlətinin əzəli torpaqlarında dövlətçiliyə nail olan ermənistan anlamalıdır ki, Zəngəzur logistik dəhlizi Azərbaycanın müstəqil dövlət kimi haqqıdır və həm də artıq bu dəhliz Avrasiya səviyyəsində mühüm geoiqtisadi və strateji əhəmiyyət kəsb edir [21]. Bu baxımdan, hazırda dünya iqtisadiyyatının ön cərgələrində gedən Çinin bu marşrutla Avropa İttifaqı ölkələrinə alternativ ticarət marşrutu kimi önəm verməsi kifayət edər. Zəngəzur logistik dəhlizi həm də regionun önəmli dövləti olan qardaş Türkiyə üçün mühüm strateji əhəmiyyət kəsb edir. Bu həm də Mərkəzi Asiya Türk dövlətlərinə çıxış üçün vacibdir. Bu dəhlizin strateji və tarixi əhəmiyyəti, eyni zamanda Türk coğrafiyasının birləşdirilməsini təmin edəcəkdir.

Nəqliyyat dəhlizləri kontekstində birgə fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi və reallaşdırılması səmərə verə bilərdi. Məsələn: 1) «Transxəzər nəqliyyat-logistika dəhlizinin Türk dövlətlərinin iqtisadiyyatının böyüməsində strateji rolu» ciddi şəkildə dəyərləndirilməli və 2) «Zəngəzur qlobal nəqliyyat dəhlizinin beynəlxalq yükdaşımaların intensivliyinə təsirinin qiymətləndirilməsi» təmin olunmalıdır. 3) «Azərbaycanın nəqliyyat-logistika sisteminin

manevrliyinin artırılması perspektivlərinin modelləşdirilməsi» də həllini gözləyən məsələlərdəndir. 4) Eyni zamanda, «Azərbaycan Respublikasının nəqliyyat-logistika potensialının ölçülməsi və qiymətləndirilməsi» zərurəti vardır. 5) Bunlarla bərabər, «Postkonflikt ərazilərdə yaradılan nəqliyyat - logistika infrastrukturundan istifadənin səmərəlilik problemləri» həll edilməlidir.

2022-2026 –cı illərdə işğaldan azad olunmuş ərazilər yaşıl enerji zonası elan edilmişdir. Enerji təhlükəsizliyi və yaşil iqtisadiyyatin inkişaf problemləri kontekstində birgə fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi və adekvat tədbirlərin görülməsi daha çox aktuallığı ilə diqqət çəkir. Məsələn: 1) «Azərbaycanda yaşıl enerji potensialının qiymətləndirilməsi Metodikası»nın hazırlanmasına ehtiyac vardır. 2) «Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yaşıl iqtisadiyyat strukturunun yaradılması və inkişaf etdirilməsi istiqamətləri»nin əsaslandırılması və iri investisiya-innovasiya layihələrinin hazırlanaraq həyata keçirilməsi, qrantların təsis edilməsi daha çox səmərə verə bilər. 3) «Postkonflikt ərazilərin resurs potensialının ölçülməsi və emal sənayesinə cəlb edilməsi problemləri»nin həlli istiqamətində sistemli tədbirlərin görülməsi tələb olunur. 4) «Azərbaycan Respublikasında yaşıl iqtisadiyyat strukturunun formalaşdırılması və inkişaf etdirilməsi istiqamətləri»ndə investisiyaların yatırılması və əvvəldə qeyd etdiyimiz kimi dövlət-özəl sektor əməkdaşlığının gücləndirilməsi faydalı ola bilərdi. 5) Bunlarla bərabər, «Postkonflikt ərazilərdə yaşıl enerji potensialının qiymətləndirilməsi və reallaşdırılması istiqamətləri»ndə daha çox real tədbirlərin görülməsi təmin edilməlidir.

Digər tərəfdən, postkonflikt ərazilərin dirçəldilməsi və reinteqrasiyası təmin edilməlidir [22]. Hazırda postkonflikt ərazilərdə 8 şəhər təsdiq edilmiş Baş Plan əsasında bərpa olunur və ya yenidən tikilir (Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər). Qarabağ iqtisadi rayonunda 4 şəhərin - Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərlərinin Baş Planı hazırlanır. Bölgədə iki yeni iqtisadi rayon yaradılmışdır [23]. Bu iqtisadi rayonların iqtisadiyyat quruculuğu strukturunun formalaşdırılması prosesləri intensivləşməkdədir [24]. Bunlarla bərabər, həmin iqtisadi rayonalrın dirçəldilməsi layihələri reallaşdırılmaqdadır [25].

Ümumilikdə, işğaldan azad olunmuş ərazilərdə 90 kənd və qəsəbə bərpa olunur, həmçinin 50 kənd və qəsəbə planlaşdırılır. 2025-ci il üçün Azərbaycan Respublikasının dövlət büdcəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında reallaşdırılan layihələr üçün Dövlət büdcəsindən 4 mlrd. manat vəsait ayrılmışdır. Bu vaxta qədər 12 yaşayış məntəqəsinə – Böyük Qayıdış təmin olunub və 2025-ci ilin sonuna kimi 20 yaşayış məntəqəsinə Böyük Qayıdış təmin ediləcəkdir. 2026-cı ilin sonuna qədər 34500 ailə doğma yurdlarına qayıdacaqdır və ümumilikdə 140 min keçmiş məcburi köçkünlərin qayıdışı təmin olunacaqdır. 2022-2026-cı illərdə Böyük Qayıdışla bağlı I Dövlət Proqramının icra edilməsinə 30,5 milyard manat vəsait tələb olunur. Yeni məskunlaşmış yaşayış məntəqələrinin digər ərazilərə reinteqrasiyası üçün istehsal infrastrukturu genişləndirilməkdədir. Postkonflikt ərazilərdə reallaşdırılan çoxsaylı nəqliyyat layihələrinin reinteqrasiya proseslərinin səmərəliliyinin artırılmasına müsbət təsiri gözlənilir. Postkonflikt ərazilərin dirçəldilməsi və reinteqrasiyası problemlərinin həlli baxımından birgə fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi və həyata keçirilməsinə ciddi tələbat vardır: 1) «Postkonflikt ərazilərin ölkə regionlarına reinteqrasiyasının aktual problemləri»nə daha dərin şəkildə baxılmalı və fəaliyyət proqramları yenilənməlidir. 2) «Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəldilməsinin müasir aspektləri»ndən yanaşmaqla, bu proseslərə özəl investisiyaların daha sürətli cəlb edilməsi tədbirləri görülməlidir. 3) «Postkonflikt ərazilərdə məşğulluq problemlərinin həlli yollarının modelləşdirilməsi»nə yeni yanaşmalar ortaya qoyulmalıdır. 4) Hesab edirik ki, «Qarabağ iqtisadi rayonunda tekstil klasterinin səmərəliliyinin qiymətləndirilməsi» və analoji sənaye klasterinin yaradılması faydalı ola bilər. 5) Bundan əlavə, «Füzuli Beynəlxalq Hava Limanı yaxınlığında yüksək texnologiyalar elmi-texniki inkişaf parkının yaradılması perspektivləri» dəyərləndirilməli və reallaşdırılmalıdır.

**Nəticə**

Beləliklə, müasir şəraitdə qlobal tendensiyalar nəzərə alınmaqla, bir qrup məsələləri ümumiləşdirmişik:

- ✓ Qlobal çağırışlar kontekstində ölkəmizin iqtisadi suverenliyini gücləndirmək üçün texnoloji uklada keçid prosesi sürətləndirilməlidir;
- ✓ Fikirmizcə, 4 Sİ ilə bağlı ölkəmizdə görülən tədbirlər yetərincə deyildir və bu istiqamətdə daha təsirli fəaliyyət modelinə ehtiyac vardır?
- ✓ Azərbaycanda innovasiya fəaliyyətinin təşkilinə daha səmərəli yanaşmalar ortaya qoyulmalı və mexanizmlər tətbiq edilməlidir;
- ✓ Azərbaycanın nəqliyyat-logistika siyasəti yeni çağırışlara uyğun olaraq təkmilləşdirilməli və nəqliyyat-logistika qovşaqlarından istifadənin səmərəliliyi artırılmalıdır;
- ✓ Transxəzər – Orta Dəhlizinin strateji məqamlarından çıxış etməklə, daha çox iqtisadi partnyorların bu layihəyə marağının artırılmasına ehtiyac vardır;
- ✓ Zəngəzur Qlobal Nəqliyyat Dəhlizinin geosiyasi və geoiqtisadi arqumentləri əsas götürülməklə, bu sahədə qlobal transformasiyalara adekvat fəaliyyət strategiyası hazırlanmalıdır;
- ✓ Postkonflikt ərazilərin bərpa edilməsi, yenidən tikilməsi və dirçəldilməsi üzrə işlərin intensivliyinin artırılmasına özəl subyektlərin cəlb edilməsi prosesləri gücləndirilməlidir və s.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Müller, J.M., Kiel, D., & Voigt, K.I. What drives the implementation of Industry 4.0? The role of opportunities and challenges in the context of sustainability // Sustainability, – 2018. 10(1), –p. 247–271.
2. Muradov, A.J., Hajiyev, N.O. Competitive Environment Is The Main Factor For Integration Into The World Economy // Journal of Economic Sciences: Theory & Practice. – 2014, Vol. 71 Issue 2, – p.5-20.
3. Aliyev, S., Gulaliyev, M., Purhani, S., Mehdiyeva, G., & M ustafayev, E. (2024). Comparative Assessment of Energy Security Level: The Case of the South Caucasus Countries. International Journal of Energy Economics and Policy, 14(1), 651–662. https://doi.org/10.32479/ijeep.14984.
4. Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi. AR Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. –Bakı: – 2016. – 65 s.
5. Azərbaycanda informasiya cəmiyyəti. Statistik məcmuə. – Bakı: 2021, – 128 s.
6. Dördüncü Sənaye İnqilabı Mərkəzi üzrə görülmüş işlərə dair hesabat. 2023. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi tabeliyində Dördüncü sənaye inqilabinin təhlili və koordinasiya mərkəzi. [Elektron resurs] / URL: https://4sim.gov.az/storage/files/multi_pdfaz/1153/658eac14d51a0658eac14d51a2.pdf.
7. Dövlət-özəl tərəfdaşlığı haqqında Azərbaycan respublikasının Qanunu. Bakı şəhəri, 9 dekabr 2022-ci il, № 691-VIQ.
8. Elektron Rəqabət İnformasiya Sisteminin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. – Bakı şəhəri, – 9 iyul 2024-cü il, № 133.
9. Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi. Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir.
10. Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 yanvar tarixli Fərmanı ilə təsdiq edilmişdir. [Elektron resurs] / URL: https://president.az/az/articles/view/67938.
11. Зиятдинова, Н.Р. Тенденции формирования четвертой промышленной революции / Н.Р. Зиятдинова // Ученые записки Крымского инженерно-педагогического университета. – 2019. № 4(66), – с. 115-119.
12. Индустрия 4.0 и новая социальность. Минск, БНТУ, – 2020. –173.с.
13. Qasımlı, V.Ə. və digərləri. Rəqəmsal iqtisadiyyat, – Bakı: Azprint, – 2023. – 262 s.
14. Клаус, Ш., Николас, Д. Технологии четвёртой промышленной революции. – Эксмо, – 2018. – 320 с.
15. Bondar, K. Challenges and Opportunities of Industry 4.0 – Spanish Experience // International Journal of Innovation, Management and Technology. – 2018. (т. 9, № 5), – p. 202-208

16. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində "Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi" publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 6 yanvar 2021-ci il. [Elektron resurs] / URL: https://president.az/az/articles/view/49932/print

17. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. / – Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir

18. Əliyev, Ş.T. Azərbaycan iqisadiyyatı. Sumqayıt. SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2018, 376 s.

19. Алиев, Ш.Т., Панахалиева, М.О., Солтанов, С. Роль Зангезурского коридора в усилении логистическо-транспортной инфраструктуры в регионе / I International Scientific and Practical Conference Recent Advances in Global Science held in Vilnus, Lithuania and for publishing as cientific article, August16-18, 2022. – с. 15-20.

20. Гасымлы, В. Карабах и Восточный Зангезур будут новым драйвером экономического роста в Азербайджане / В.Гасымлы // Интерактивная наука. – 2022. № 3(68), – с. 69-70.

21. Əliyev, Ş.T. Zəngəzur qlobal nəqliyyat dəhlizinin Türk dövlətlərinin iqtisadi inteqrasiyasında strateji funksiyaları / Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilmiş "Heydər Əliyev və müasir türk dünyası" beynəlxalq elmi-praktik konfransın. AKU, Bakı, 2 may 2023. Google Scholar: https://scholar.google.com/citations?user=iLFtk9wAAAAJ&hl=ru.

22. Səmədzadə, Z.Ə. Qarabağ iqtisadiyyatı 100 ildə: 5 cild/ Z. Səmədzadə; [baş red. A. Səmədzadə; red. Y. Məmmədova]. Bakı: Kitab Çapı, 2022. – 856 s.

23. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. – Bakı, – 7 iyul 2021-ci il.

24. Əliyev, Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının strateji aspektləri // Jurnal "Geostrategiya", Bakı, 2021, №4. – Səh. 67-72. http://geostrategiya.az/pdf/2021/0464.pdf.

25. Алиев, Ш.Т. Стратегическая важность возрождения Карабахского и Восточно-Зангезурского экономических районов Азербайджана // "Вопросы истории", Москва, 2022, № 6, Səh. 148-155. https://elibrary.ru/item.asp?id=48808624.

**Шафа Тифлис оглы АЛИЕВ**
*Профессор Сумгаитского Государственного Университета, д.э.н.*
*Руководитель Центра Исследования Экономики Карабаха UNEC.*

# ГЛОБАЛЬНЫЕ ВЫЗОВЫ И АЗЕРБАЙДЖАН: ЭКОНОМИЧЕСКИЙ СУВЕРЕНИТЕТ, ПЕРЕХОД К ЧЕТВЕРТОЙ ПРОМЫШЛЕННОЙ РЕВОЛЮЦИИ, ГЛОБАЛЬНЫЕ ТРАНСПОРТНЫЕ КОРИДОРЫ И РЕИНТЕГРАЦИЯ ПОСТКОНФЛИКТНЫХ ТЕРРИТОРИЙ

## Резюме

***Цель исследования*** – является рассмотрение аспектов экономического суверенитета Азербайджана в контексте глобальных вызовов, проблем перехода к четвертой промышленной революции, глобальных транспортных коридоров, вопросов реинтеграции постконфликтных территорий. Изложена суть глобальных проблем. Объявлены приоритеты экономического суверенитета Азербайджана. Проанализированы проблемы перехода Азербайджана к четвертой промышленной революции. Отмечено стратегическое значение глобальных транспортных коридоров. Рассмотрены и обобщены направления реинтеграции постконфликтных территорий.

***В качестве метода исследования*** использовался ряд методов – анализ, синтез, сравнение, статистический анализ, обобщение, прогнозирование. Кроме того, были освещены научные

труды различных исследователей, посвященные актуальным мировым проблемам и тенденциям.

***Результаты исследования*** – из положений, обобщенных в статье, связаны с определением направлений действий в условиях глобальных вызовов и принятием мер по совершенствованию модели экономического развития страны.

***Ключевые слова***: Азербайджан, глобальные вызовы, экономический суверенитет, 4-я промышленная революция, глобальные транспортные коридоры, постконфликтные территории.

**Shafa Tiflis ALIYEV**
*Professor at Sumgait State University.*
*Head of the UNEC Centre for Karabakh Economic Research.*

*ORCİD-ID:* http://orcid.org/0000-0002-4997-7563

## GLOBAL CHALLENGES AND AZERBAİJAN: ECONOMİC SOVEREİGNTY, TRANSİTİON TO THE 4TH İNDUSTRİAL REVOLUTİON, GLOBAL TRANSPORT CORRİDORS AND REİNTEGRATİON OF POST-CONFLİCT TERRİTORİES

**Summary**

*The purpose of the research* is to examine the aspects of Azerbaijan's economic sovereignty, the problems of transition to the 4th industrial revolution, global transport corridors and the issues of reintegration of post-conflict territories in the context of global challenges. The essence of global problems is given. The priorities of Azerbaijan's economic sovereignty are explained. The problems of transition to the 4th industrial revolution of Azerbaijan are analyzed. The strategic importance of global transport corridors is given. The directions of reintegration of post-conflict territories are considered and summarized.

*As a research method*, a number of methods were used - analysis, synthesis, comparison, statistical analysis, generalization and forecasting. Along with these, the scientific works of various researchers on contemporary global problems and trends were kept in focus.

*The results of the research* – from the provisions summarized in the article, are related to determining directions of action in the context of global challenges and taking measures to improve the country's economic development model.

***Key words:*** Azerbaijan, global challenges, economic sovereignty, 4th industrial revolution, global transport corridors, post-conflict territories.